## AZƏRBAYCAN (Səviyyə 2)

Azərbaycan hökuməti insan alverinin aradan qaldırılması üzrə minimum standartlara tam şəkildə cavab verməsə də, bu istiqamətdə əhəmiyyətli tədbirlər görməyə davam edir. Əvvəlki hesabat dövrü ilə müqayisədə hökumətin həyata keçirdiyi tədbirlərin sayında ümumilikdə artım müşahidə edilmişdir; buna görə də Azərbaycan Səviyyə 2-də yerini qoruyur. Bu tədbirlərə, əvvəlki illərdən fərqli olaraq, insan alverində ittiham olunan bütün şəxslər barəsində azadlıqdan məhrumetmə hökmünün çıxarılması və koordinasiya mexanizmlərinin toplanması daxildir. Hökumət Daxili İşlər Nazirliyinin (DİN) nəzdində fəaliyyət göstərən sığınacaqlar və İnsan Alveri Qurbanlarına Yardım Mərkəzləri (İAQYM) vasitəsilə insan alveri qurbanlarına lazımi səviyyədə xidmətlər göstərməyə davam etmiş və onların müdafiəsi üçün, QHT-lərə ayrılan ümumi maliyyə vəsaitinin məbləğini artırmışdır. Hökumət insan alveri qurbanlarına xidmət göstərə biləcək çox sayda QHT ilə anlaşma memorandumu imzalamış və insan alverinə qarşı müxtəlif tədbirlərin görülməsi üçün QHT-lərə maliyyə vəsaiti ayırmışdır. Bununla belə, hökumət bir neçə əsas sahədə minimum standartlara cavab verə bilməmişdir. Səlahiyyətli orqanlar adətən psixoloji təzyiqi nəzarət vasitəsi kimi qəbul etmir və ya insan alveri faktının nəzərə alınması üçün transmilli elementin olmasını tələb edirdilər və zərərçəkmişi cinayət təqibində həyata keçirilən tədbirlərin mərkəzinə qoymurlar.  Hökumət xüsusilə əhalinin həssas təbəqəsi arasında ölkədaxili insan alveri qurbanları üçün yoxlama və profilaktik aşkarlama tədbirlərini həyata keçirməməyə davam edir.  Bütövlükdə hökumətin ayırdığı maliyyə vəsaiti hələ də, QHT-lər tərəfindən idarə olunan sığınacaqlar üçün kifayət deyil və bu sığınacaqlar lazımı şəkildə maliyyələşdirilmir və hökumət planlaşdırılmış və elan olunmamış əmək şəraiti yoxlamaları  üzrə moratoriumu davam etdirir.

**PRİORİTET TÖVSİYƏLƏR:** İnsan alveri cinayətlərini ciddi şəkildə araşdırmaq və təqib etmək və insan alverində təqsirli bilinən şəxslər, o cümlədən cinayətin iştirakçısı olmuş cavabdeh şəxslər barəsində adekvat cəzalar müəyyən etmək. * Xüsusilə ölkədaxili insan alveri, məcburi əmək və uşaq alveri ilə bağlı profilaktik müəyyənləşdirmə tədbirlərini gücləndirmək. * Əhalinin həssas təbəqəsi, o cümlədən cinsi xidmətlər təklif edən şəxslər, miqrantlar,

dilənçiliklə məşğul olan uşaqlar arasında insan alveri qurbanlarını müyyən etmək üçün SƏP-ləri və göstəriciləri tətbiq etmək və müvafiq şəxsləri onlardan istifadə barədə təlimə cəlb etmək. * İnsan alveri qurbanının hüquq mühafizə orqanları ilə əməkdaşlıq tələb olunmadan və hüquq mühafizə orqanlarından başqa digər qurumlar, o cümlədən vətəndaş cəmiyyəti, sosial işçilər və səhiyyə işçiləri tərəfindən rəsmi qaydada müəyyən edilməsinə icazə vermək. * İnsan alveri qurbanlarına xidmət göstərən QHT-lər tərəfindən idarə olunan sığınacaqlara daha çox maliyyə vəsaiti ayırmaq. * Müstəntiqləri, prokurorları və hakimləri qurban mərkəzli yanaşmalar , o cümlədən təkrar travma, məxfilik və uşaqlarla bağlı xüsusi yanaşmalar üzrə təlimlərə cəlb etmək. * Cinayət təqibi proseslərində iştirak edən zərərçəkmişlər üçün hüququ müdafiə xidmətlərini artırmaq üçün sistematik qurban-şahid yardım proqramını həyata keçirmək. * Qurbanların sırf insan alverinin qurbanı olmasının birbaşa nəticəsi olaraq törətdikləri qanunsuz hərəkətlərinə görə qeyri-adekvat şəkildə cəzalandırılmamasını təmin etmək. * Planlaşdırılmış və təsadüfi əmək yoxlamaları üzrə moratoriumu aradan qaldırmaq və məcburi əməyin qurbanı olmuş şəxslərin müəyyən edilməsi və onlara müraciət edilməsi üzrə Əmək Müfəttişliyinin səlahiyyətlərini artırmaq. * İşəqəbul şirkətləri üçün sərt qaydaların və nəzarəti davamlı şəkildə tətbiq etmək, o cümlədən miqrant işçilərdən alınan işə qəbul haqqını ləğv etmək və və saxta işəgötürən şirkətləri cinayət məsuliyyətinə cəlb etmək. * İdentifikasiya və yönləndirmə prosedurları, göstəricilər və müsahibə sualları daxil olmaqla, potensial azyaşlı qurbanları qorumaq üçün xüsusi prosedurları qəbul etmək və həyata keçirmək. * Hakimləri cinayət işlərində restitusiya ilə bağlı təlimlərə cəlb etmək və aşkar edilmiş bütün insan alveri qurbanlarını kompensasiya tələb etmək hüququ barədə məlumatlandırmaq və onları bunu etməyə həvəsləndirmək. * Tələb olunan bütün sənədləri toplanıldığı zaman, qurbanların DİN-in nəzdində fəaliyyət göstərən sığınacaqlara daxil olmasına və orada onlara xidmət göstərilməsinə icazə vermək.

## MƏHKƏMƏ TƏQİBİ

Hökumət təqib tədbirlərini davam etdirmişdir. 2005-ci ildə qəbul edilmiş “İnsan alverinə qarşı mübarizə haqqında” qanunda və Cinayət Məcəlləsinin 144-1-ci maddəsində cinsi istismar və məcburi əmək cinayət əməli kimi müəyyən edilmiş, yetkinlik yaşına çatmış şəxslər barədə törədildikdə 5 ildən

10 elədək müddətə azadlıqdan məhrum etmə cəzası ilə, yetkinlik yaşına çatmayan şəxslər barəsində törədildikdə isə 8 ildən 12 elədək azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır. Bu cəzalar kifayət qədər sərt müəyyən edilmiş və cinsi istismara münasibətdə zorlama kimi digər ağır cinayətlər üçün nəzərdə tutulan cəzalara uyğunlaşdırılmışdır.
Hüquq mühafizə orqanları 2022-ci ildə 16 şübhəli hal üzrə 14 işi araşdırdığı halda, cari hesabat dövründə 12 müttəhimin iştirakı ilə 9 işi araşdırmışdır; 9 işin hər biri cinsi istismar halları ilə bağlı olmuşdur. Hökumət əvvəlki hesabat dövrlərindən 3 cinsi istismar və 1 əməyin istismarı işini araşdırmağa davam etmişdir. Hökumət 2022-ci ildə 10 yeni müttəhimi təqib etdiyi halda, cari hesabat dövründə 9 yeni müttəhimi təqib etmişdir; 9 müttəhimin hər biri cinsi istismar işi üzrə ittiham edilmişlər. Hökumət əvvəlki illərdən saxlanmış işlər üzrə 3 müttəhimi cinsi istismara və 2 müttəhimi isə əməyin istismarına görə ittiham etməyə davam etmişdir. Məhkəmələr 2022-ci ildə 12 insan alverçisini məhkum etdiyi halda, cari hesabat dövründə 10 insan alverçisini məhkum etmişdir; 10 nəfərin hər biri cinsi istismara görə məhkum edilmişdir. Əvvəlki illərdən fərqli olaraq, hakimlər heç bir şərti cəza verməmiş və insan alverinə görə ittiham olunan bütün şəxslər barəsində daha sərt cəzalar – 8 ildən 18 elədək azadlıqdan məhrumetmə cəzası çıxarmağa davam etmişlər. Əvvəlki illərdə hakimlərdən azadlıqdan məhrumetmə cəzasına alternativ cəzaların verilməsini tələb edən “Cəza siyasətinin humanistləşdirilməsi haqqında" 2018-ci ildə imzalanmış sərəncam ilə əlaqədar olaraq insan alverçiləri barədə şərti cəzalar müəyyən edilmişdir; lakin 2020-ci ildə hökumət sərəncamın insan alverinə şamil edilmədiyini müəyyənləşdirən əlavə təlimatlar dərc etmişdir.

DİN-in İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi (İAQMBİ) əksər insan alveri hallarını araşdırmışdır. Səlahiyyətli orqanlar çox vaxt psixoloji təzyiqi nəzarət vasitəsi kimi qəbul etmir və ya insan alveri faktının nəzərə alınması üçün transmilli elementin olmasını tələb edirlər ki, bu da ölkədaxili cinsi istismarla bağlı halların daha yüngül cəza ilə cəzalandırılan cinayətlər kimi təsnifləndirilməsinə səbəb olmuşdur. Əvvəlki illərdə “GRETA” və beynəlxalq təşkilatlar əksər araşdırmaların reaktiv olduğunu və qurbanların ifadələri üçün təsdiqedici dəlillərin olmadığını bildirmişlər; lakin hüquq mühafizə orqanları qeyd etmişdir ki, standart prosedurlar təhqiqata başlamaq üçün qurbanın şikayət etməsini tələb edir və bu, profilaktik təhqiqatların aparılmasına mane

olur.  Hökumət insan alveri cinayətlərində iştirak etmiş dövlət məmurlarının hər hansı istintaqı, təqibi və ya məhkum edilməsi barədə məlumat verməmişdir. Hökumət polis və Dövlət Miqrasiya Xidmətinin (DMX) əməkdaşlarına insan alverinə qarşı müxtəlif mövzularda təlimlər keçmişdir. Hökumət beynəlxalq işlərin araşdırılmasında Pakistan, Rusiya, Tailand, Türkiyə və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) səlahiyyətli orqanları ilə əməkdaşlıq etmişdir.  Avropa İnsan Hüquqları Məhkəməsi 2021-ci ilin oktyabr ayında hökumətin 2009-cu ildə miqrant işçilərin məcburi əmək barədə iddialarını effektiv şəkildə araşdırmadığına dair qərar çıxarmış və hökumətə qarşı iddia qaldıran 33 bosniyalı zərərçəkmişin hər birinə 5000 avro (4530 ABŞ dolları) ödəməyi qərar etmişdir.  Hökumət qurbanlara ödəniş etməmişdir.

**MÜDAFİƏ**

Hökumət qurbanların müdafiəsi ilə bağlı tədbirləri bir qədər gücləndirmişdir. Hökumət 2022-ci ildə rəsmi şəkildə 94 qurban aşkar etdiyi halda, cari hesabat dövründə 91 qurban aşkar etmişdir. Rəsmi qaydada aşkar edilmiş 91 qurbanın 89-u insan alverçiləri tərəfindən cinsi istismara, ikisi isə əməyin istismarına məruz qalmışdır; Onlardan 90 nəfəri qadın, 1-i kişi olduğu halda, 2 nəfər əcnəbi vətəndaşdır. Hökumət ölkədaxili insan alveri qurbanlarının, xüsusən də azərbaycanlı qurbanların aşkar edilməsi istiqamətində profilaktik tədbirlər görməmişdir. Nəticədə, rəsmi olaraq aşkar edilmiş qurbanların əksəriyyəti təyinat ölkələrində aşkar edilmiş azərbaycanlı qurbanlar və ya Azərbaycanda istismar edilən xarici vətəndaşlar olmuşdur.  Səlahiyyətli orqanlar 2022-ci ildə 10 azərbaycanlı ölkədaxili insan alveri qurbanı aşkar etdiyi halda, cari hesabat dövründə yalnız 2 azərbaycanlı ölkədaxili insan alveri qurbanını aşkar etmiş və heç bir əcnəbi qurban müəyyən etməmişdir. Hökumət 2023-cü və ya 2022-ci illərdə “valideynlərinə kömək etmək məqsədilə dilənçiliklə məşğul olan” uşaqlar və valideynlər haqqında məlumat təqdim etməmişdir, lakin müşahidəçilərin verdiyi məlumata əsasən, polis uşaqların potensial məcburi dilənçilik hallarını araşdırmaqdan imtina etmiş və uşaqların istismarında ailənin rolunu araşdırmadan uşaqların əksəriyyətini valideynlərinə qaytarmış, bununla da uşaqlara daha çox zərər vurulmasına şərait yaratmışdır. Hökumət zərəçəkmişlərin aşkar edilməsi üçün SƏP tədbirlərini tətbiq etməyə davam etmiş və səlahiyyətli orqanlar cinsi xidmət təklif edən şəxsləri və digər həssas icmalardakı fərdləri yoxlamaq üçün göstəricilərdən istifadə etmişlər. Bununla

belə, aşkar edilmişdir ki, ilk müdaxilə edən şəxslər, o cümlədən hüquq mühafizə orqanları, immiqrasiya və sosial xidmət məmurları ya prosedurlardan xəbərsizdirlər, ya da onlara ardıcıl olaraq əməl etmirlər və ya onları başa düşmürlər. Eyni zamanda GRETA-nın verdiyi məlumata əsasən həssas əhali qruplarına daxil olan şəxslər, o cümlədən qadınlar, uşaqlar, LGBTQI nümayəndələri, cinsi xidmət təklif edən şəxslər, sığınacaq axtaranlar və əcnəbi miqrant işçilər insan alveri göstəriciləri üzrə yoxlanılmır. Bundan əlavə, hökumət müsahibə sualları, göstəricilər və müraciət prosedurları kimi uşaqlara uyğunlaşdırılmış siyasətlərə malik deyil.  SƏP ilk müdaxilə edən şəxslərin potensial qurbanlar barədə 24 saat ərzində  İAQMBİ-yə məlumat verməsini tələb edir ki, həmin qurum araşdırma əsasında rəsmi olaraq qurbanın şəxsiyyətini müəyyən edir.  QHT-lər və hökumət bəzi potensial qurbanlara dəstək xidmətləri göstərmişdir; lakin rəsmi insan alveri qurbanı statusu olmayan şəxslər dövlət tərəfindən verilən birdəfəlik müavinəti almamış və insan alverçiləri olduğu iddia edilən şəxslərə qarşı mülki iddia qaldırmaq imkanına malik olmamışlar.

2022-ci illə müqayisədə müdafiə tədbirləri üçün ayrılmış ümumi dövlət maliyyəsi artmışdır. Hökumət insan alveri qurbanlarına yardım üçün 210 161 manat (123 620 ABŞ dolları) məbləğində maliyyə vəsaiti ayırmışdır ki, 2022-ci ildə bu rəqəm 179 464 manat (105 570 ABŞ dolları) təşkil etmişdir. Hökumət həmçinin DİN-in nəzdində fəaliyyət göstərən sığınacaq üçün 116 161 manat (68 330 ABŞ dolları) məbləğində maliyyə vəsaiti ayırmışdır ki, 2022-ci ildə bu rəqəm 106 964 manat (62 920 dollar) təşkil etmişdir.  QHT-lərə Dövlət Dəstəyi Agentliyi insan alverinə qarşı mübarizə aparan 11 QHT layihəsini maliyyələşdirmək üçün 94 000 manat (55 290 ABŞ dolları) məbləğində maliyyə vəsaiti ayırmışdır ki, 2022-ci ildə 8 bu cür layihəni maliyyələşdirmək üçün 73 500 manat (43 240 ABŞ dolları) ayrılmışdır.  Hökumət həmçinin 5300 manat (3120 ABŞ dolları) maddi vəsait toplamış və bu məbləği rəsmi olaraq müəyyən edilmiş qurbanlara bağışlamışdır. 2023-cü ildə hökumətin ayırdığı maliyyə vəsaiti artsa da, QHT-lər tərəfindən idarə olunan sığınacaqlar üçün bu məbləğ hələ də yetərli deyil və sığınacaqlar ciddi maliyyə sıxıntısı yaşayırlar və xarici qrantlara dair məhdudlaşdırıcı normalar müəyyən edən qanunvericilik QHT-lərin xarici donorlardan maliyyə almaq imkanlarını məhdudlaşdırır. QHT-lər tərəfindən idarə olunan sığınacağa dəstək göstərən bir çox işçilər könüllülük

əsasında işləyirlər. Əvvəlki illərdə hökumət heç bir təcrübəsi olmayan təşkilatlarla bir sıra müqavilələr bağlamış və insan alveri qurbanlarının təhlükəsizliyini və onlara yardım keyfiyyətini təhlükə altında qoymuşdur.

DİN-in nəzdində insan alveri qurbanları üçün yaşayış yeri, maddi yardım, hüquqi yardım, tibbi və psixo-sosial dəstək göstərən sığınacaq fəaliyyət göstərir. DİN-in nəzdində fəaliyyət göstərən sığınacaq 50 qurbanı yerləşdirmək qabiliyyətinə malikdir və burada qadınlar, kişilər və uşaqlar üçün ayrı otaqlar nəzərdə tutulmuşdur, lakin sığınacaqda hərəkət azadlığı məhdudlaşdırılır və qurbanlardan sığınacağı tərk etmək üçün ərizə təqdim etmələri tələb olunur. DİN-in nəzdində fəaliyyət göstərən sığınacağın direktoru və işçilərinin əksəriyyəti yarımştat vəzifələrinə görə hökumət tərəfindən ödənilən QHT işçiləridir. DİN-in nəzdində fəaliyyət göstərən sığınacaq potensial qurbanların burada 1 aya qədər yerləşdirilməsinə imkan verir, lakin daha uzun müddətə qalmaq üçün qurbanların hüquq mühafizə orqanları ilə əməkdaşlıq etmələri tələb olunur; Sığınacaqda rəsmi statusa malik 61 qurban və 6 potensial qurban (2022-ci ildə rəsmi statusa malik 73 qurban və 1 potensial qurban) dəstək alır. DİN-in nəzdində fəaliyyət göstərən sığınacaq kişi cinsindən olan qurbanlar üçün yeganə yaşayış yeri təmin edir. Hökumət rəsmi statusa malik qurbanlar üçün 700 manat (410 ABŞ dolları) köçürülmə müavinəti ayırır; Rəsmi olaraq müəyyən edilmiş 90 qurban köçürülmə müavinəti almışdır. Bakı və Göyçay şəhərlərində yerləşən İAQYM-lar rəsmi statusa malik və potensial qurbanlara hüquqi, psixoloji, tibbi və məşğulluq yardımı göstərirlər; İAQYM-lar rəsmi statusa malik 67 qurbana və 25 potensial qurbana (2022-ci ildə 81 rəsmi statusa malik qurbana və 32 potensial qurbana) yardım göstərmişdir. Hökumət həmçinin rəsmi statusa malik 14 qurbanın peşə kurslarına daxil edilməsinə köməklik göstərmiş və rəsmi statusa malik 10 qurbanın işə düzəlməsinə kömək göstərmişdir (2022-ci ildə rəsmi statusa malik 25 qurban peşə kurslarına daxil olmuş və rəsmi statusa malik 9 qurbanın işə düzəlməsinə kömək göstərilmişdir). Bununla belə, “GRETA” peşə kursuna daxil ola biləcək insan alveri qurbanlarının sayının məhdud olduğu və bəzi kursların sığınacaqlardan uzaq yerlərdə keçirildiyi barədə məlumat vermişdir. Hökumət həmçinin rəsmi statusa malik 61 qurbanı əlavə dəstək xidmətləri üçün QHT-lər tərəfindən idarə olunan

sığınacaqlara göndərmişdir (2022-ci ildə 81 qurbanı). DMX 2 əcnəbi vətəndaşa müvəqqəti yaşayış icazəsi almağa kömək etmişdir (2022-ci ildə 2 nəfərə).

“GRETA” və digər müşahidəçilərin fikrincə, səlahiyyətli orqanlar cinsi istismar qurbanlarını "fahişəlik" iddiası əsası ilə inzibati cərimələrlə cəzalandırmış və yoxlama tədbirlərinin olmaması səbəbindən əməyin istismarı qurbanı olmuş miqrantları deportasiya etmiş ola bilər. Əvvəlki illərdə beynəlxalq təşkilat insan alveri göstəricilərinə malik əcnəbi miqrant işçilər barədə İAQMBİ-yə məlumat vermiş, lakin İAQMBİ onların heç birini qurban kimi tanımamış və səlahiyyətli orqanlar sonradan onların bəzilərini deportasiya etmişdir. Polis DİN-in nəzdində fəaliyyət göstərən sığınacaqda qalan qurbanları müdafiə edir, lakin səlahiyyətli orqanlar insan alveri qurbanları üçün zərərçəkmiş-şahid yardım tədbirlərindən istifadə etmirlər. Polis səlahiyyətli orqanlardan və ya insan alverçilərinin qisas almasından çəkinən qurbanları istintaq və təqiblər zamanı əməkdaşlığa həvəsləndirməkdə çətinliklərin olduğunu bildirmişdir. Məhkəmələr insan alveri ilə bağlı bəzi ictimai dinləmələr keçirmiş, nəticədə media orqanları qurbanların şəxsiyyətlərini və onların istismarı ilə bağlı təfərrüatları dərc etmişlər. Hökumət insan alveri qurbanlarına hüquqi yardım göstərmək üçün vəkil təmin edir; vəkil tərəfindən 105 rəsmi qurbana (2022-ci ildə 99 olmaqla) hüquqi yardım göstərilmişdir. Hökumət cinayət təqiblərində video və yazılı ifadələrin verilməsinə icazə verir, lakin səlahiyyətli orqanlar çox vaxt insan alverində şübhəli bilinən şəxsin iştirakı ilə qurbanlarla müsahibələr keçirir və uşaqlar hüquqi terminologiyanı uşaqlara uyğun şəkildə izah etmək üçün uşaq psixoloqu və ya vəkili olmadan ifadə verirlər. Mülki iddialar üzrə dəymiş ziyanın ödənilməsi ilə bağlı 2 iş qaldırıldığı halda, hakimlər heç vaxt cinayət işlərində kompensasiya və mülki iddialar üzrə kompensasiya təyin etməmişlər. Əvvəlki illərdən fərqli olaraq, hökumət qurbanlara yardım fonduna köçürmək üçün insan alverçilərindən əmlak, pul, qiymətli kağızlar və ya digər aktivləri müsadirə etmədiyini bildirmişdir.

**PROFİLAKTİK TƏDBİRLƏR**

Hökumət profilaktik tədbirləri bir qədər gücləndirmişdir. Milli koordinator (MK) hökumətin insan alverinə qarşı mübarizə tədbirlərinə rəhbərlik edir və idarələr arasında əməkdaşlıq yaxşılaşsa da, idarələrarası koordinasiya mane olaraq qalır. Hökumət insan alverinə qarşı mübarizəni koordinasiya etmək

üçün müxtəlif nazirliklərin və yerli QHT-lərin nümayəndələrindən ibarət İdarələrarası Komissiya (İK) yaratmışdır; İK-nin iclası bir dəfə baş tutmuşdur (2022-ci ildə olmamışdır). MK 2020-2024 MFP-nin icrasına nəzarət edən işçi qrupuna rəhbərlik edir; işçi qrupunun görüşü baş tutmamışdır (2022-ci ildə bir dəfə). Bəzi vətəndaş cəmiyyəti üzvləri hökumətin insan alverini yüksək prioritet hesab etmədiyini bildirsələr də, İAQMBİ ilə qənaətbəxş ünsiyyətin qurulduğunu, o cümlədən idarənin tövsiyə və narahatlıqlara cavab verdiyini vurğulamışlar. DİN 18 QHT ilə anlaşma memorandumu imzalamış və insan alverinə qarşı müxtəlif tədbirlər üçün QHT-lərə 23 000 manat (13 530 ABŞ dolları) məbləğində maliyyə vəsaiti ayırmışdır. Hökumət tələbələri və ictimaiyyəti hədəfə alan maarifləndirmə kampaniyaları təşkil etmiş, xaricə gedən vətəndaşlara və Azərbaycana gələn əcnəbilərə insan alveri riskləri haqqında broşüralar paylamışdır. İAQMBİ-nin insan alveri ilə bağlı qaynar xətti fəaliyyət göstərir, lakin qaynar xəttə daxil olan zənglərin sayı açıqlanmamışdır (2022-ci ildə 158 zəng). Hökumət kommersiya məqsədləri ilə cinsi xidmətlərin göstərilməsi tələbini azaltmaq üçün tədbirlər görməmişdir. Hökumət nə işəqəbul agentliklərinin fəaliyyətini tənzimləmiş və onlara nəzarəti həyata keçirmiş, nə də işə götürülməsi üçün işçilərdən haqların alınmasını qadağan etmişdir. 2015-ci ildə Prezident tərəfindən Əmək Müfəttişliyinin əmək şəraitinin planlaşdırılmamış ekspertiza keçirməsini qadağan edən sərəncamın imzalanmasından sonra hökumət planlaşdırılmış və elan edilməmiş əmək şəraiti yoxlamaları üzrə moratoriumun tətbiqinə davam etmişdir ki, bu da profilaktik araşdırmaları və qurbanların müəyyən edilməsi tədbirlərini məhdudlaşdırmışdır. Müfəttişlərə şikayətləri araşdırmaq üçün işəgötürənlərdən və işçilərdən məlumat tələb etməyə icazə verilsə də, şikayətlərin cavablandırılması iş yerlərinin yoxlanmasını əhatə etmir. Hökumət 2022-ci ildəki 1664 əmək pozuntusu barədə məlumat verdiyi halda, cari hesabat dövründə araşdırılan əmək pozuntularının sayı barədə məlumat təqdim etməmişdir.

**İNSAN ALVERİ PROFİLİ:** Son 5 il üzrə verilən məlumatlara əsasən, insan alverçiləri Azərbaycanda yerli və xarici qurbanları, xaricdə isə Azərbaycandan olan qurbanları istismar edirlər. İnsan alverçiləri azərbaycanlı kişi və oğlanları ölkə daxilində və Qətər, Rusiya, Türkiyə və BƏƏ-də məcburi əməyə cəlb edirlər. İnsan alverçiləri azərbaycanlı qadın və uşaqları ölkə daxilində və

Bəhreyn, İran, İraq, Malayziya, Pakistan, Qətər, Rusiya, Türkiyə və BƏƏ-də cinsi istismar edirlər. Əvvəlki illərdə insan alverçiləri Çin Xalq Respublikası, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna və Özbəkistandan olan qurbanları həm cinsi istismara, həm də məcburi əməyə cəlb etmişlər. Əvvəlki illərdə Azərbaycan Mərkəzi Asiyadan İrana, Türkiyəyə və BƏƏ-yə cinsi istismar və əməyin istismarı qurbanları üçün tranzit ölkə kimi istifadə olunmuşdur. Ölkə daxilində çox sayda uşaqlar yol kənarında satıcı qismində, çay evlərində və şadlıq evlərində məcburi dilənçiliyə və məcburi əməyə cəlb olunurlar. Neft sektorunda çalışan işçilər uzun növbəli və əmək pozuntularının törədildiyi, əmək haqqının tutulduğu və məzuniyyət hüququnun pozulduğu iş şəraitində işləməyə məcbur edilirlər. Vətəndaş cəmiyyəti və hökumət rəsmiləri 2023, 2022 və 2021-ci illərdə pambıq yığımında sərfəli məhsul yığımı texnikasının geniş yayılması səbəbindən məcburi əməyə cəlb edilmə hallarının olmadığını bildirmişlər. Əvvəlki hesabatlar göstərir ki, polisin cinsi xidmətlər təklif edən şəxslərdən rüşvət alması faktlarının sayı azdır və əxlaqsızlıq yuvaları rayon polis rəislərinin nəzarəti altında fəaliyyət göstərir. QHT-lər xaricdə saxta və ya şübhəli iş yerlərinə, həmçinin sosial media proqramları vasitəsi ilə onlayn işəqəbul hallarının artdığını bildirir.